# 400 çadırla qurulan Dünya Dövləti - Osmanlı İmperatorluğu



Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

**(əvvəli ötən sayımızda)**

*III Muradın hakimiyyət illəri 22 dekabr 1574-16 yanvar 1595-ci illərdir. III Murad 12-ci Osmanlı padşahı və 91-ci İslam xəlifəsidir. Doğum tarixi 4 iyul 1546-cı ildir. Səltənəti zamanında Osmanlı dövlətinin sahəsi 19.902.000 km2-ə qədər yüksəlmişdi. 21 il hakimiyyətdə qalan III Murad dönəmində 11 sədrəzəm, 7 şeyxülislam dəyişmişdir.*

*Osmanlı imperatorluğunda 22 dekabr 1574-cü il tarixində II Səlimin ölümü və III Muradın taxta çıxdığı rəsmi şəkildə elan olundu. Saraya gəldiyi gecə boğdurduğu 5 qardaşı və atasının cənazə mərasimi eyni gündə keçirildi.*

Sokollu 1574-cü il tarixində vəfat edən II Səlimin yerinə keçən III Muradın dönəmində də sədrəzəmliyini davam etdirmişdi. Lakin əvvəlki gücü yox idi, çünki sultan da artıq onun rəqibləri ilə iş birliyi içində idi. Sokollu buna baxmayaraq bir çox siyasi uğurlara imza atdı. Mərakeşi portuqalların əlindən xilas etdi. Avstriyanın Osmanlı sarayı daxilində yaratdığı intriqaları aradan qaldırdı. Ancaq ona qarşı III Muradın təzyiqləri artmışdı, əmisi oğlu Budin Bəylərbəyi Sokollu Mustafa Paşa səbəbsiz yerə edam edilmişdi. Sokollu Mehmed Paşa 11 oktyabr 1579-cu il tarixində dərviş geyimində olan bir yeniçeri tərəfindən divan çıxışı zamanı ürəyindən xəncərlənərək öldürüldü. Sədrəzəmi öldürən şəxs dərhal digər əsgərlər tərəfindən parçalanarkən, başda sultan olmaq üzrə dövlət adamları dərhal içəri alındı. Sokollu isə edilən bütün yardımlara baxmayaraq həyatını itirdi. Daha sonra Əyyub Sultan Məscidində dəfn edildi. Məlikə Safiyyə Validə Sultan özəlliklə Sokollu Mehmed Paşanın 1579-cu il tarixindəki ölümündən sonra dövlət idarəsində olduqca önəmli rol oynamışdır.

*Sultan III Murad dövründə Osmanlı-Səfəvi müharibəsindən (1578-1590) başqa ölkənin uzaq sərhədlərində də siyasi dəyişiklik baş vermişdi.Bu illərdə Osmanlı siyasəti daha çox Lehistana (Polşa) yönəlmişdi. Mərakeşdə ispan və portuqallarla mübarizə aparan Osmanlı imperatorluq ordusu 1578-ci ildə onları məğlub etdi. Gedən döyüşdə Portuqaliya kralı həlak oldu.*

*Avstriyalılara qarşı irəliləyən Sənan Paşa 27 sentyabr 1594-cü il tarixində Yanıqqalanı ələ keçirərək Komorn qalasını mühasirəyə aldı.*

Sultan III Murad 17 yanvar 1595-ci ildə vəfat etdi və Aya Sofiya məscidinin həyətindəki türbəsinə dəfn olundu. Şayələrə görə, padşah vəfat etdiyi əsnada 49 övladı və 7 hamilə kənizi var idi.

**Kılıç Ali Paşa**

1500-ci ildə İtaliyada Kalabriyanın bir kəndində, bir balıqçının oğlu olaraq doğulmuşdu.Kılıç Ali Paşa bir çox dəniz döyüşlərində qələbə çalmış, ölkələr tutmuş böyük türk admiralıdır.

Onun tərcümeyi-halı belə yazılmışdır: "Turqut Rəisin yanında yetişmişdir. 1551-ci ildə dəniz kapitanı olmuşdur.1556-cı ildə admiral rütbəsi ilə İzmirə vali təyin edilmişdir.1565-ci ildə Malta döyüşü başlayan zaman İsgəndəriyyənin valisi idi.Bu döyüşdə şəhid olan Turqut rəisin yerinə Bəhriyyə Bəylərbəyi (admiral) rütbəsi ilə Trablusqərb Bəylərbəyi rütbəsi ilə Liviyanın 1565-1568-ci illərdə baş valisi olmuşdur.1568-1571-ci illərdə Əlcəzair Bəylərbəyi idi.

15 iyul 1570-ci il Malta döyüşündə qələbə çalıb Kipri tutduqdan sonra 1571-ci ildə Osmanlı İmperatorluq donanmasının Kaptan-ı dəryası olmuşdur.Bu rütbəni 1587-ci ilə qədər daşımışdır."Uluq Ali" kimi tanınan adını II Səlim dəyişdirib "Kılıç Ali" qoymuşdur. Eyni zamanda cəvahirlə bəzədilmiş bir qılınc da bağışlamışdı.

*1573 və 1574-cü illərdə İtaliya və İspaniya ətraflarına, həmçinin Kiritə zərbələr vuraraq İnebahtını tutdu.Tunisi Barbarosdan sonra (1574) ikinci dəfə ələ keçirərək bu ölkəni İspaniyanın nüfuzundan xilas etdi.1582-ci ildə Krıma getdi.Osmanlı İmperatorluq donanmasının Kaptan-ı dəryalığı (admirallığı) dövründə türk donanmasını dünyanın ən böyük dəniz qüvvəsi kimi mühafizə etdi.*

*27 iyun 1587-ci ildə İstanbulda ölmüşdür. Kılıç Ali Paşa Topxanə məscidinin yanında dəfn edilmişdir.*

**Sultan III Murad dövründə Osmanlı-Səfəvi müharibəsindən (1578-1590) başqa ölkənin uzaq sərhədlərində də siyasi dəyişiklik baş vermişdi.Bu illərdə Osmanlı siyasəti daha çox Lehistana (Polşa) yönəlmişdi. Mərakeşdə ispan və portuqallarla mübarizə aparan Osmanlı imperatorluq ordusu 1578-ci ildə onları məğlub etdi. Gedən döyüşdə Portuqaliya kralı həlak oldu**

**Məlikə Safiyyə Validə Sultan**

*Sofia Bellicui Bafo adı ilə 1550-ci ildə Venesiyada dünyaya gəldi. Çox varlı bir ailənin tək övladı olan Sofia dövrünə görə mükəmməl bir təhsil almışdı. Atası Leonardo Baffo Korsika adasının qubernatoru idi. Hələ 12 yaşında olarkən Aralıq dənizində gəmiylə səyahət edərkən Osmanlı dənizçiləri tərəfindən əsir alınmışdı.Bir il sonra İstanbulda Pera kölə bazarına gətirilən Sofianın gözəlliyi dövrün həseki sultanı Nurbanu Sultanın qulağına qədər gəlib çatır. Manisa sancaqbəyi olan oğlu şahzadə Muradın (III Murad) dövlət işlərindən uzaq passiv xarakterindən narahat olan anası Nurbanu Sultan bir sərvət ödəyərək 13 yaşlı Sofianı kölə bazarından satın alaraq saraya gətirir.*

Saraya gəlişi ilə 2 il boyunca dayanmadan hərəmxanada yaşayan Sofianın adı dəyişdirilərək mənası "arı", duru, saf gözəllik" olan Safiyyə qoyulur.15 yaşı tamam olduqda şahzadə Murada təqdim edilən Safiyyə belinə qədər uzanan sarı saçları, iri mavi gözləri, uzun boyu və qamətli yerişi ilə şahzadəni özünə aşiq edir.

Safiyyə Sultan III Murad taxta keçdikdə baş qadın (Baş arvadı) olaraq paytaxta gətirildi. Gözəlliyi və zəkası ilə qısa zamanda böyük bir nüfuz sahibi olan Safiyyə Sultanla, yenicə Validə Sultan olan Nurbanu Sultanla arasında ilk sürtüşmələr də məhz bu dövrdə başlamışdı. Sultan III Murada hər gün yeni cariyələr təqdim olunsa da, Safiyyə Sultan gözdən düşmədi. Safiyyə Sultan Sokollu Mehmed Paşanın 1579-cu il tarixində öldürülməsindən sonra dövlətin idarə olunmasında böyük rol oynamışdır. Rəqibləri ilə mübarizə apararkən yavaş-yavaş da dövlət işlərinə qarışmağa başlayan Safiyyə Sultanın 1585-ci il tarixindən daha da gücləndiyi qeyd olunur. Safiyyə Sultan sadəcə dövlətin daxili işləri ilə yox, həmçinin xarici siyasəti ilə də maraqlanırdı. Xarici dövlətlərin hökmdarları ilə şəxsən yazışmaları olduğu bilinməkdədir.İngiltərə kraliçası I Elizabeth (1558-1603) ona 1593-cü il tarixində zinət əşyaları ilə bəzənmiş bir portretini yollamış,cavab olaraq kraliçaya gümüş naxışlı bir araba dolusu geyim,qurşaq,yaqut və incilərlə bəzənmiş bir tac yolladı.Bu tipli hədiyyələşmələr onun validə sultanlığı dövründə də davam etdi.İngiltərə elçisi Edward Bartonun validə sultana verdiyi hədiyyələrlə İstanbulda vəzifə bölgülərinə təsir göstərdiyi bilinir.Belə ki, bu hədiyyələşmələr öz nəticəsini verəcək və Safiyyə Sultan sarayda kraliçanın ən güclü dəstəkçisi olanaraq bilinəcəkdi. Kraliça 1599-cu il tarixində ona bərbəzəkli bir at arabası və İran cinsi pişik hədiyyə etmiş, Safiyyə Sultan da bu arabayla indiyə qədər görünməmiş bir şəkildə bütün İstanbulu gəzmişdi.

**Safiyyə Sultan Validə sultanlıq dönəmində Osmanlı imperatorluğunun idarə edilməsində güclü rol oynamışdır.1595-ci il tarixində III Muradın vəfatı və oğlu III Mehmedin taxta keçməsi ilə validə sultan olaraq dövlət içindəki gücünü daha da gücləndirmişdir. Ərinə və ölümündən sonrakı düşmənlərinə qarşı oğlunu daim qorumuşdur.Hətta taxta sui qəsd etməsi səbəbi ilə öz nəvəsi şahzadə Mahmudu və anasını oğluna etdiyi təzyiqlərlə edam etdirmişdir. Sultan III Mehmed (1595-1603) önəmli məsələlərdə anası ilə məsləhətləşirdi**

Safiyyə Sultan Validə sultanlıq dönəmində Osmanlı imperatorluğunun idarə edilməsində güclü rol oynamışdır.1595-ci il tarixində III Muradın vəfatı və oğlu III Mehmedin taxta keçməsi ilə validə sultan olaraq dövlət içindəki gücünü daha da gücləndirmişdir. Ərinə və ölümündən sonrakı düşmənlərinə qarşı oğlunu daim qorumuşdur.Hətta taxta sui qəsd etməsi səbəbi ilə öz nəvəsi şahzadə Mahmudu və anasını oğluna etdiyi təzyiqlərlə edam etdirmişdir. Sultan III Mehmed (1595-1603) önəmli məsələlərdə anası ilə məsləhətləşirdi.

*Oğlu Sultan III Mehmedin vəfatından sonra validə sultanlığı bitib böyük validə sultanlıq vəzifəsinə yiyələndi.Osmanlı adət-ənənələrinə görə köhnə saraya getməli olan Safiyyə Sultan bu güc və iqtidardan əl çəkə bilmədi. Sultan I Ahmedin (1603- 1617) hərəmi olan Kösəm Sultanın güclənməsi Safiyyə Sultanı gözdən düşürdü və köhnə saraya köçürüldü.10 noyabr 1618-ci il tarixində vəfat etdi.*

**(ardı var)**

